*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**



# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 19 aprel 2017-ci il № 29 (2146) Qiymət 25 qəpik

# Silahlı Qüvvələrdə genişmiqyaslı təlimlər davam edir



*Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin təsdiq etdiyi plana əsasən, aprelin 16-da qoşunların döyüşə hazırolma qabiliyyəti, qüvvə və vasitələrin idarə olunmasının təşkili, onların qarşılıqlı fəaliyyətinin yoxlanılması məqsədilə döyüş şəraitinə uyğunlaşdırılmış vəziyyətdə genişmiqyaslı təlimlər davam edir.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin verdiyi məlumata əsasən, təlimlərə 30 min nəfərədək şəxsi heyət, 250-dən artıq döyüş texnikası, 200-dək müxtəlif çaplı raket və artilleriya qurğusu, reaktiv yaylım atəş sistemi və minaatan, 25 ədəd müxtəlif təyinatlı döyüş aviasiyası, eləcə də yeni növ radioelektron kəşfiyyat vasitələri və pilotsuz uçuş aparatları cəlb olunub.

Hərbi Hava Qüvvələri və Quru Qoşunlarına məxsus bölmələr təlimin gedişində döyüş tapşırıqlarını icra edirlər. Hərbi hissələrimizin döyüş qabiliyyətinin daha da möhkəmləndirilməsində, xüsusilə hərbi əməliyyatları hazırlayıb həyata keçirən zabitlərimizin peşə bacarığının yüksəldilməsində, bölmələr arasında qarşılıqlı əlaqənin səmərəli təşkilində, həmçinin şəxsi heyətin müasir silah və texnikadan istifadə bacarığının, taktiki və atəş vərdişlərinin artırılmasında taktiki təlimlərin əhəmiyyəti böyükdür.

**(Ardı 4-cü səhifədə)**

AZƏRBAYCAN ORDUSU

Müdafiə naziri general-polkovnik Zakir HƏSƏNOV:

# Azərbaycan Ordusu bir saat ərzində erməni silahlı birləşmələrinin müqavimətini qırdı

## Təlim və Tədris Mərkəzində aprel döyüşlərinin ildönümünə həsr olunmuş təntənəli mərasim keçirilib

*Ötən ilin aprelində Ermənistan silahlı birləşmələrinin təmas xəttində törətdiyi təxribatlara cavab olaraq Azərbaycan Ordusunun ön xətdəki bölmələri düşmənə sarsıdıcı zərbələr endirdi və strateji əhəmiyyətli bir sıra yüksəklikləri, 2 min hektaradək ərazini işğaldan azad etdi. Zabit, gizir və əsgərlərimizin şücaəti Silahlı Qüvvələrimizin tarixinə beləcə iri hərflərlə həkk edildi.*






Bu günlərdə birlik, birləşmə, xüsusi təyinatlı təhsil müəssisələrində ordumuzun aprel zəfərinin ildönümünə həsr edilmiş silsilə tədbirlər təşkil edilib. Aprelin 14-də isə Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində bir il öncə cəbhə xəttində baş vermiş uğurlu əməliyyatlara həsr olunan təntənəli mərasim keçirildi. Səhnədə quraşdırılmış geniş ekranda dalğalanan üçrəngli bayrağımızın fonunda Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin dediyi və qızılı hərflərlə yazılmış "Aprel döyüşləri bizim şanlı tarixi qələbəmizdir" sözləri tədbirin devizi seçilmişdi.

Mərasimdə Azərbaycan Respublikasının Prezidenti Administrasiyası, Milli Məclis və Müdafiə Nazirliyinin nümayəndələri, həmçinin cəbhəboyu zonada yerləşən bəzi rayonların icra hakimiyyəti başçıları, aprel döyüşlərinin iştirakçıları, şəhid ailələri, veteranlar və digər qonaqlar iştirak edirdilər.

Əvvəlcə tədbir iştirakçıları ümummilli lider Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü uğrunda döyüşlərdə həlak olmuş Vətən övladlarının xatirəsini bir dəqiqəlik sükutla yad etdilər. Sonra Azərbaycanın Dövlət himni səsləndirildi.

Mərasimdə çıxış edən Müdafiə naziri general-polkovnik Zakir Həsənov ötən ilin aprelində cəbhə xəttində baş vermiş hadisələri geniş təhlil etdi və ordumuzun bölmələrinin həmin döyüşlərdə göstərdiyi peşəkarlığı yüksək qiymətləndirdi. Müdafiə naziri Silahlı Qüvvələrimizin vurduğu sarsıdıcı zərbələrdən düşmənin hələ də özünə gəlmədiyini tədbir iştirakçılarının diqqətinə çatdırdı. Eyni zamanda nazir ordumuzun qələbəsini şərtləndirən səbəblərdən söhbət açaraq bildirdi ki, Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin diqqət və qayğısı nəticəsində ötən illər ərzində Silahlı Qüvvələrimizin təminat və təchizatı müasir tələblər səviyyəsinə yüksəlib, silahlanmaya yeni və müasir silahlar, döyüş texnikaları və hərbi vasitələr daxil edilib. Nazir ordu quruculuğu ilə bağlı aparılan hərbi islahatların müxtəlif aspektlərinə toxunaraq qeyd etdi ki, Silahlı Qüvvələrimizdə kompleks islahatlar aparılır və bu islahatların əsas istiqamətlərindən biri hərbi təhsillə bağlıdır. Nazirin sözlərinə görə, hərbi kadrların peşəkarlıq səviyyəsinin yüksəldilməsi istiqamətində indiyədək vacib addımlar atılıb, müqavilə ilə xidmət edən hərbi qulluqçuların sayı ordumuzda xeyli artıb və onun bəhrəsi aprel döyüşlərində göründü.



"Həmçinin hərbi qulluqçuların sosial-məişət şəraitinin yüksəldilməsi ilə bağlı ordumuzda böyük tədbirlər həyata keçirilib. Cənab Prezidentin diqqət və qayğısı nəticəsində müasir hərbi hissələr inşa edilərək şəxsi heyətin istifadəsinə verilib. Ordumuzun bölmələri ön xətdə müasir tələblər səviyyəsində təmin olunub. Bu gün Azərbaycan əsgərləri milli yeməklərimizlə qidalanırlar. Ordumuzun daha da qüdrətlənməsi işləri hazırda da davam etdirilir. Görülən işlərin ən önəmli nəticəsi odur ki, Vətən uğrunda hər cür fədakarlığa hazır olan qəhrəman hərbçilər nəsli yetişib. Azərbaycan Ordusu bir saat ərzində erməni silahlı birləşmələrinin müqavimətini qırdı və Lələtəpə yüksəkliyini ələ keçirdi. Talış kəndi istiqamətində də bölmələrimiz irəliləyərək döyüş tapşırığını uğurla yerinə yetirdi."

General-polkovnik Zakir Həsənov çıxışını yekunlaşdırarkən vurğuladı ki, Azərbaycan Ordusu torpaqlarımızın azad edilməsi uğrunda dövlət başçısı tərəfindən verilən hər bir əmri yerinə yetirməyə hazırdır və qadirdir.

Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi, Prezident Administrasiyasının ictimai-siyasi məsələlər şöbəsinin müdiri, tarix elmləri doktoru, professor Əli Həsənov çıxış edərək müstəqil Azərbaycan dövlətini və onun təhlükəsizliyinin qarantı olan Silahlı Qüvvələrimizi Azərbaycan xalqının qürur hissi doğuran tarixi nailiyyəti kimi dəyərləndirdi. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin qayğısı ilə qüdrətlənən Silahlı Qüvvələrimiz, natiqin sözlərinə görə, aprel döyüşlərində xalqımıza böyük sevinc və qürur hissi yaşatdı. Ə.Həsənov vurğuladı ki, hadisələr Azərbaycan əsgərinin döyüş və mənəvi-psixoloji hazırlığının, qələbə əzminin yüksək olduğunu nümayiş etdirdi.

Prezidentin köməkçisi həmçinin qeyd etdi ki, aprel döyüşləri mühüm hərbi qələbə olmaqla yanaşı, beynəlxalq arenada bütün diqqəti bu münaqişəyə cəlb etdi. Bütün dünya dərk etdi ki, Qarabağ münaqişəsi dondurulmuş münaqişə deyil.

Eyni zamanda döyüşlər xalqın, dövlətin, ordunun gücünü və birliyini, Azərbaycanın heç vaxt işğalla barışmayacağını, nəyin bahasına olursa-olsun, ərazi bütövlüyünü bərpa etmək əzmini bir daha göstərdi.

Füzuli rayon İcra Hakimiyyətinin başçısı Ali Alıyev çıxış edərək bildirdi ki, aprel döyüşlərində ümummilli liderimiz Heydər Əliyevin bünövrəsini qoyduğu Azərbaycan Ordusunun qazandığı qələbə ölkəmizin bütün vətəndaşları kimi füzulilərin də böyük ruh yüksəkliyinə səbəb oldu. "Aprel döyüşlərində Azərbaycan əsgəri möhkəm hərbi hazırlıq, intizam və yüksək döyüş ruhu nümayiş etdirdi, qələbə əzmini sübut etdi."

Aprel döyüşlərində şücaət göstərərək həlak olmuş Azərbaycanın Milli Qəhrəmanı Murad Mirzəyevin atası Telman Mirzəyev çıxışında qeyd etdi ki, həmin döyüşlər zamanı Azərbaycan Ordusu öz gücünü təkcə düşmənə yox, həm də bütün dünyaya göstərdi. Milli Qəhrəman Murad Mirzəyevin həlak olmasından ötən bir il ərzində onun ailəsinə, o cümlədən bütün şəhid ailələrinə və döyüşlərdə yaralanan hərbi qulluqçulara ölkə rəhbərliyi tərəfindən daim diqqətin və qayğının göstərildiyini qeyd edərək, Azərbaycan Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevə dərin minnətdarlığını bildirdi.

Aprel döyüşlərinin iştirakçıları adından çıxış edən polkovnik-leytenant Eldəniz Sadıqov vurğuladı ki, həmişə olduğu kimi, indi də ordumuzda şəxsi heyətin döyüş ruhu çox yüksək səviyyədədir. Döyüşlərdə yaralanmasına baxmayaraq, yenə də sırada olduğunu qeyd edən zabit döyüşçü yoldaşları adından bildirdi ki, şəxsi heyət işğal altında olan torpaqlarımızın azad edilməsi və bayrağımızın həmin ərazilərdə dalğalandırılmasına həmişə hazırdır.

Sonra Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda gedən döyüş əməliyyatları zamanı xidməti vəzifələrini layiqincə yerinə yetirmiş şəxsi heyətin təltif edilməsi haqqında Müdafiə nazirinin əmri oxundu. General-polkovnik Zakir Həsənov döyüşlərdə fərqlənmiş hərbi qulluqçulara medallar və fəxri fərmanlar, həmçinin aprel hadisələri zamanı Silahlı Qüvvələrə göstərdikləri dəstəyə görə cəbhəboyu zonada yerləşən Ağdam, Ağcabədi, Bərdə, Füzuli, Tərtər, Xocavənd və Şəmkir rayonlarının icra hakimiyyəti başçılarına Müdafiə nazirinin xüsusi mükafatlarını təqdim etdi.

Sonda Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsü, Əməkdar incəsənət xadimi, istefada olan polkovnik Abdulla Qurbaninin vətənpərvərlik mövzusunda yazdığı şeirlərə bəstəkar Azad Zahidin bəstələdiyi mahnılar əsasında hazırlanmış "Aprel zəfəri - 2016" ədəbi-musiqili kompozisiyası nümayiş etdirildi.

**Əbülfət QASIMOV,**
**"Azərbaycan Ordusu",**
**fotolar**
**Natiq İSAYEVİNDİR**

# Azərbaycanın Müdafiə nazirinin İran İslam Respublikasına rəsmi səfəri

İranda rəsmi səfərdə olan Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov aprelin 16-da Tehranda İran İslam Respublikasının Müdafiə və Silahlı Qüvvələrə dəstək naziri general-mayor Hüseyn Dehqan ilə görüşüb.

Azərbaycan nümayəndə heyəti Şəhidlər kompleksini ziyarət edərək ehtiram əlaməti olaraq memorial önünə əklil qoyub.

Sonra rəsmi qarşılanma mərasimi keçirilib.

İki ölkənin nümayəndə heyətlərinin geniş tərkibdə keçirilən görüşü zamanı hərbi, hərbi-texniki əməkdaşlığın genişləndirilməsi perspektivləri müzakirə edilib, eləcə də regional təhlükəsizlik və digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.



* * *

İran İslam Respublikasında rəsmi səfərdə olan Azərbaycan Müdafiə Nazirliyinin nümayəndə heyəti aprelin 16-da Tehranda İranın müdafiə sənayesinin nailiyyətləri sərgisində olub.

Bu ölkənin müdafiə sənayesi kompleksinin istehsal etdiyi hərbi təyinatlı məhsullarla tanış olan Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənova İran Silahlı Qüvvələrinin silahlanmasındakı müxtəlif döyüş vasitələrindən ibarət eksponatlar təqdim edilib.

Sərgi ilə tanışlıqdan sonra general-polkovnik Zakir Həsənov "Xatirə kitabı"nı imzalayıb.



* * *

Aprelin 16-da Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov İran İslam Respublikasının Ali Milli Təhlükəsizlik Şurasının katibi Əli Şəmxani ilə görüşüb.

Tərəflər terrorizm və güc tətbiqinin bölgə, ümumiyyətlə, bütün dünya üçün böyük təhlükə yaratdığını bildirərək bu çağırışlara qarşı mübarizədə iki ölkənin səylərinin daha da artırılmasının vacibliyini vurğulayıblar.

Cənab Ə.Şəmxani ölkəsinin Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiyini və sərhədlərin güc yolu ilə dəyişdirilməsinin əleyhinə olduğunu, eləcə də regiondakı problemlərin danışıqlar vasitəsilə həll edilərək sülhün, sabitliyin və təhlükəsizliyin bərqərar olmasının tərəfdarı olduğunu xüsusi qeyd edib.

* * *

Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov İran İslam Respublikasına rəsmi səfəri çərçivəsində aprelin 17-də İslam Şurası Məclisinin sədri Əli Laricani ilə görüşüb.

Görüşdə Müdafiə naziri



Azərbaycan və İran prezidentlərinin çoxsaylı görüşləri və qarşılıqlı rəsmi səfərlərinin ölkələrimiz arasında əlaqələrin genişlənməsinə mühüm töhfə verdiyini, ikitərəfli əməkdaşlığın inkişafına və daha da güclənməsinə xidmət etdiyini bildirib.

Regionda təhlükəsizlik məsələlərinə toxunan general-polkovnik Zakir Həsənov Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi ilə bağlı aparılan danışıqlar, xüsusən də son vaxtlarda qoşunların qarşıdurma xəttində baş vermiş hadisələr barədə məlumat verib.

Ə.Laricani isə öz növbəsində İranın Azərbaycanın müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü daim dəstəklədiyini, münaqişənin sülh yolu ilə beynəlxalq hüququn normaları və prinsipləri çərçivəsində həllinin tərəfdarı olduğunu vurğulayıb.

Tərəflər Azərbaycan ilə İran arasında hərbi və hərbi-texniki sahələrdə əməkdaşlığın inkişaf perspektivlərini, qarşılıqlı maraq doğuran regional, qlobal və digər məsələləri müzakirə ediblər.

**Müdafiə Nazirliyi
Mətbuat Xidməti**

*Nümunəvi xidmət*

# Bacarıqlı manqa komandiri

*Azərbaycan igidlər diyarı, vətənpərvərlər ölkəsidir. Tarix boyu öz qəhrəmanlığı ilə seçilən Azərbaycan xalqı müharibələrdə igidlik göstərib, daim müstəqilliyə can atıb. Əlverişli coğrafi-strateji mövqeyi, zəngin təbii sərvətləri olan Azərbaycan zaman-zaman bədxah qonşuların təcavüzünə məruz qalıb, lakin xalqın azadlıq ideyası sönməyib, nəticədə bu gün müstəqil bir xalq olaraq dünya dövlətləri arasında öz sözünü deyə bilir.*

Dövlətin əsas sütunu ordu, ordununsa əsas gücü Vətənini sevən hərbi qulluqçulardır. Regionda öz sözünü deyən güclü orduya malik olmağımızın başlıca səbəbi isə ölkə rəhbərliyinin orduya göstərdiyi diqqət və qayğıdır.

Ali Baş Komandan İlham Əliyevin səriştəli siyasəti nəticəsində ordumuzun maddi-texniki təminatı güclənir, yeni və müasir silah-sursat alınır. Bu müasir silahları, texnikaları öyrənən və idarə edən əsgərlərimizin döyüş hazırlığı günü-gündən artır. Əsgərlərin döyüşçü kimi hazırlanmasında zəhməti olan bacarıqlı və savadlı komandir heyəti formalaşıb.

Belə vətənpərvər oğullarımızdan biri ilə ön xətdəki hərbi hissədə tanış olduq. Çavuş Elşən Güloğlan oğlu Mahmudov sadə bir kəndli ailəsində dünyaya göz açıb. Böyüyüb yaşa dolduqca torpaqlarımızın bir qisminin işğal altında olması hamı kimi onun da qəlbini sızladır. Müddətli həqiqi hərbi xidmətə yaşı çatanda böyük maraq və həvəslə ordu sıralarına yollanır. "N" hərbi hissəsində sürücü-mexanik kimi xidmət edir. Xidmət müddətində nümunəvi və bacarıqlı əsgər kimi seçilən Elşənin ailəsinə dəfələrlə komandanlıq tərəfindən təşəkkür məktubu göndərilir. Tərxis olunduqdan sonra bir müddət fərqli işlərdə çalışsa da, onu yalnız bir məsələ düşündürür. "Axı mən əsgər kimi Vətənə daha yararlı ola bilərdim." 2014-cü ildə könüllü müraciət edərək cəbhə bölgəsinə yollanır.



Artıq o gündən 3 il keçib. Çavuş Elşən Mahmudov da pulemyot manqasının komandiri olaraq aprel döyüşlərində düşmənə göz açmağa imkan verməyənlərdən biri olub. Hamı kimi o da düşmən təxribatının qarşısını almaq üçün irəli atılıb. Bu gün də düşməndən azad edilən torpaqlarımızda xidmətdədir.

Komandirləri yanında xüsusi hörmətə malik olan E.Mahmudov öz bilik və bacarığı ilə əsgərlərin də rəğbətini qazanıb. O, tabeliyində olan şəxsi heyətə pulemyotun taktiki-texniki xüsusiyyətlərini, bu vacib silahdan necə istifadə olunduğunu öyrədir. Pulemyot manqasının tuşlayıcısı əsgər Zöhrab Gərayev təcrübəli manqa komandirindən çox şey öyrəndiyini, xidmətini başa vurduqdan sonra ordu sıralarında qalaraq torpaqlarımızın azad ediləcəyi günə qədər döyüşəcəyini bildirdi.

Öz bilik və bacarığı ilə tabeliyindəki şəxsi heyətə nümunə olan, əsgərlərinə döyüş ruhu aşılayan gənc komandirə bir neçə dəfə hərbi hissə komandanlığı tərəfindən təşəkkür elan olunub. Torpaqlarımızın azad ediləcəyi günü səbirsizliklə gözlədiyini deyən çavuş E.Mahmudova görə, düşmənlə üzbəüz mövqedə xidmət etmək qürurvericidir. "Həmişə nümunəvi xidmətimlə valideynlərimin başını uca etməyə çalışıram. Ali Baş Komandanımızın əmri ilə hər an tabeliyimdə olan heyətlə düşmən tapdağı altında olan Qarabağımızı azad etmək, uğrunda vuruşmağa hazırıq."

Gənc komandirlə söhbətimizdən sonra xoş əhval-ruhiyyəyə köklənirəm. Ön xətdə Vətən keşiyində duran əsgərlərimizin üçrəngli bayrağımızı Qarabağda, Xankəndidə, Laçında... tezliklə dalğalandıracaqlarına əmin oluram.

**Baş leytenant
Məhəmməd NƏSİRLİ,
"Azərbaycan Ordusu",
foto
C.CƏFƏROVUNDUR**

# Silahlı Qüvvələrdə genişmiqyaslı təlimlər davam edir

**(Əvvəli 1-ci səhifədə)**

Genişmiqyaslı təlimlərin keçirilməsi planına uyğun həyəcan siqnalı ilə qaldırılan qoşunlar və komanda idarəetmə məntəqələri əməliyyat təyinatı rayonlarına çıxarılıblar.



Burada qoşunlar cəmləşmə rayonlarını tutur və qruplaşmalar yaradılır.

Şəxsi heyətin komanda idarəetmə məntəqələrində döyüş fəaliyyəti təşkil olunub. Qərargahlarda tapşırıqlar aydınlaşdırılır, vəziyyət qiymətləndirilir, qərarlar qəbul edilir və qoşunlara müvafiq göstərişlər verilir.

Qoşunların idarə edilməsi, onların təşkili üzrə yüksək tələblərə uyğun olaraq, gizli və operativ şəkildə həyata keçirilir.

Şəxsi heyətin və hərbi texnikanın bütün hərəkəti komendant xidməti tərəfindən tənzimlənir.



Təlimin hazırkı mərhələsinin şərtlərinə uyğun olaraq, qoşunlar verilmiş tapşırıqları yerinə yetirir.

Təlimlər aprelin 21-dək davam edəcək.

**"Azərbaycan Ordusu"**

# Uğurlarda onların da payı var

*Səhər hərbi hissəyə gələndə idarə heyəti ilə yerbəyer keçirilirdi və komandir gün ərzində görüləcək işlər, yerinə yetiriləcək tapşırıqlarla bağlı konkret göstərişlər verirdi. Sonra bölmə komandirləri şəxsi heyətin yanına qayıdaraq günün nizam qaydalarına uyğun olaraq qarşıya qoyulmuş vəzifələri icra etməyə başladılar.*

- Tankçılarımızın qarşısında duran əsas vəzifə döyüş hazırlığını durmadan artırmaq, yuxarı komandanlığın istənilən döyüş tapşırığını yerinə yetirməkdir, - zabit Elvin Həsənov bildirdi. - Bunun üçün şəxsi heyət döyüş hazırlığı planında nəzərdə tutulmuş kompleks tədbirləri yerinə yetirməklə məşğuldur. Tank heyətləri taktika və ixtisas hazırlığı məşğələlərinə cəlb olunurlar. Tank komandirləri, sürücü-mexaniklər, tuşlayıcı operatorlar gündəlik məşğələlərdə öz peşəkarlıqlarını artırırlar. Bir sözlə, tankçılarımız üzərlərinə düşən vəzifələri bilirlər və qazandıqları nəticələr ürəkaçandır.

Hər bir işin bəhrəsi gərgin zəhmət nəticəsində qazanılır. Hərbi xidmətdə də belədir. İl ərzində keçirilən döyüş və ixtisas hazırlığı məşğələləri, döyüş atışları, çöl dərsləri, təlimlər hərbi peşəni mənimsəməyə, bilik və vərdişləri möhkəmləndirməyə imkan verir.

Hərbi hissənin qərargahında iftixar hissilə bildirdilər ki, 2016-cı il tankçıların xidmətində daha bir uğurla yadda qalıb. Bütün qoşun növlərinə məxsus hərbi hissələrdə olduğu kimi, tankçılar da ilin sonunda görülmüş işlərə yekun vurublar. Tankçıların hazırlığı yuxarı komandanlıq səviyyəsində yoxlanıb. Hərbi hissənin tankçıları birlik səviyyəsində ən yaxşı nəticə göstərib. Qarşıya qoyulan tapşırıqları uğurla yerinə yetirdiyinə görə, bu hərbi kollektiv tank bölmələri arasında birinci yeri tutub.

Qazanılmış uğur zabit, gizir və əsgər heyətlərinin birgə zəhmətinin nəticəsidir. Bölmə komandirləri baş leytenant Orxan Abdullayev, baş leytenant Elçin Abdullayev, leytenant Sənan Omarov kimi zabitlər nümunə göstərdilər. Məhz belə zabitlərin bilik və bacarığı ilə şəxsi heyət döyüş hazırlığı sahəsində müvəffəqiyyətlər qazanır. Bu mütəxəssislər hərbi hissədə nizam-intizamı təmin edir, tank heyətlərinin döyüş hazırlığı sahəsində bacarığının möhkəmləndirilməsi üçün əllərindən gələni əsirgəmirlər.

Biz leytenant Sənan Omarovla şəxsi heyətlə keçirilən məşğələdən sonra tanış olduq. Söhbət zamanı məlum oldu ki, gənc zabit Sənan Omarov 1993-cü ildə Qazaxıstanda dünyaya gəlib. Sonradan Azərbaycana, Ağstafa rayonuna köçüblər.

Hələ yeniyetmə vaxtlarından hərbçi olmağı arzulayan Sənan sübut edib ki, bu istək onda ötəri olmayıb. Peşə seçimi məqamında o, israrla zabit olmaq qərarına gəlib. Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini müvəffəqiyyətlə bitirən və tankçı ixtisasına yiyələnən leytenant taqım komandiri kimi hərbi hissədə xidmətə başlayır. Bir ildən az xidmət etsə də, onu qərargahda bacarıqlı, intizamlı bir zabit kimi tanıyırlar. Leytenant Omarov döyüş texnikasını yaxşı bilir və şəxsi heyətlə işləməyi bacarır.



- Hazırda tankın silahları və onların material hissələrinə həsr edilmiş dərs keçirik, - gənc zabit bildirdi. - Tankçılarımız peşəkar hərbçilərdir və öz ixtisaslarını yaxşı mənimsəyiblər. Gündəlik dərslərdə, praktik məşğələlərdə onlar öz ustalıqlarını daha da artırırlar. Bundan əlavə onlarda döyüş ruhunun və vətənpərvərlik hisslərinin yüksəldilməsi üçün hər gün məqsədyönlü iş aparırıq. Bir sözlə, bizim heyətlərin döyüş hazırlığı yüksək səviyyədədir.

Leytenant Sənan Omarov öz vəzifəsinin öhdəsindən məharətlə gəldiyinə görə komandanlıq tərəfindən ona bölük komandiri vəzifəsini yerinə yetirmək həvalə edilib. Gənc zabit bu işin məsuliyyətini dərk edərək komandanlığın etimadını doğrultmağa çalışır.

Söhbət zamanı nümunəvi, işinin peşəkarı olan tankçılar barədə soruşdum. Leytenant Sənan Omarov gizir Xəyyam Ələkbərovun adını qeyd etdi. Salyan rayonunun Yeni Muğan kəndindən olan gizir Ələkbərov tank komandiridir və hərbi hissədə bölmənin ən bacarıqlı tankçısı kimi tanınır. Gizir Ələkbərov hazırlıqlı heyətilə birlikdə tankı məharətlə idarə edir və bu sahədə yaxşı təcrübə qazanıb. Onun idarə etdiyi texnika həmişə saz vəziyyətdə olur və döyüşə hazırdır.

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu Təmkin Şıxəliyev də öz hazırlığı ilə komandirlərinin hörmətini qazanıb. O, Cəlilabad rayonunun Göytəpə kəndindəndir. Üç ildir ki, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi Vətənə xidmət edir və döyüş ustalığını günü-gündən artırır.

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu Qurban Əbilov barəsində də xoş sözlər dedilər. O da üç ildir ki, Silahlı Qüvvələrimizdə müqavilə ilə xidmət edir. Tankı gecə və gündüz, müxtəlif şəraitlərdə məharətlə idarə edən əsgər Əbilov ən hazırlıqlı tankçılardandır.

**Əbülfət QASIMOV,
"Azərbaycan Ordusu",
foto müəllifindir**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***17 aprel 2017-ci il.***

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 114 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonu ərazisindəki adsız yüksəkliklərdə, İcevan rayonunun Berkaber kəndində yerləşən mövqelərdən Qazax rayonunun Kəmərli, Qızılhacılı kəndlərində, Berd rayonunun Çinari, Ayqepar və Ayqedzor kəndlərində yerləşən mövqelərdən Tovuz rayonunun Ağbulaq kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Çiləbürt, Ağdam rayonunun Yusifcanlı, Şıxlar, Mərzili, Qaraqaşlı, Füzuli rayonunun Qorqan, Horadiz, Qaraxanbəyli, Aşağı Seyidəhmədli və Aşağı Veysəlli kəndləri yaxınlığında, həmçinin Göygöl, Goranboy, Tərtər, Ağdam, Xocavənd və Füzuli rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

***18 aprel 2017-ci il.***

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini 119 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonunun Voskevan, Şavarşavan kəndlərində və adsız yüksəkliklərdə, İcevan rayonunun Berkaber, Paravakar kəndlərində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonu ərazisindəki adsız yüksəkliklərdə, Kəmərli, Quşçu Ayrım, Qızılhacılı, Cəfərli kəndlərində, Berd rayonunun Çinari, Ayqedzor kəndlərində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Tovuz rayonu ərazisindəki adsız yüksəkliklərdə, Ağbulaq, Koxanəbi və Muncuqlu kəndlərində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Ağdam rayonunun Qaraqaşlı, Mərzili, Sarıcalı, Cəvahirli, Yusifcanlı, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Qorqan, Qaraxanbəyli, Horadiz, Aşağı Veysəlli kəndləri yaxınlığında, həmçinin Göygöl, Goranboy, Tərtər, Ağdam, Xocavənd, Füzuli və Cəbrayıl rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

## Ön xətdən reportaj

# “Çox qürurluyam ki, Lələtəpə yüksəkliyi ətrafında xidmət edirəm”

*Bir il bundan əvvəl düşmən təxribatının qarşısını alaraq, Lələtəpə yüksəkliyini və ətraf əraziləri düşməndən azad edən hərbi hissənin şəxsi heyəti ilə görüşə gəlmişik. Şəxsi heyətlə iş üzrə zabit polkovnik-leytenant Seymur Həbibullahovla döyüş postlarına yola düşürük.*

Maşın Horadizdən Lələtəpə istiqamətində irəliləyir. Qarşı təpədə dalğalanan üçrəngli bayrağımız görünür. O bayrağın hər dalğasında bir məna var. Bu dalğalar zəfər marşını ifa edir. Şanlı aprel döyüşlərini, qəhrəman oğullarımızı, qüdrətli ordumuzu təcəssüm etdirir. Döyüş meydanında şəhid olan qəhrəmanlardan danışır. Əsgərlərimizin qəhrəmanlığından, şücaətindən, igidliyindən, vətənpərvərliyindən ilham alaraq dalğalanır. Bu bayrağımız aprel qələbəmizin abidəsidir. O dalğalandıqca şəhidlərimizin də ruhunu şad edir. Düşmən üzərindəki şanlı qələbəmizin tərənnümü olan bayrağımız 25 illik həsrətimizə də son qoyub.

Məni düşüncələrimdən zabit Həbibullahovun səsi ayırır. Cocuq Mərcanlı kəndini göstərir:

- Bu ərazilər əvvəllər düşmən tərəfindən açıq-aydın müşahidə edilirdi. Aprel qələbəmizdən sonra bu kəndlərə nəzarət Azərbaycan əsgərindədir. Əsgərlərimiz Lələtəpə yüksəkliyindən həm bizim əraziləri qoruyur, həm də düşmən mövqelərinə nəzarət edirlər. Silahlı Qüvvələrimizin tam nəzarətinə keçmiş bu ərazilərdə Ali Baş Komandanın sərəncamına əsasən abadlıq işləri görülür. Yeni yaşayış binalarının, məktəblərin tikintisinə başlanıb. Hazırda işlərin sürətlə davam etməsi bu ərazilərin daimi sakinlərinin öz doğma yurdlarına yaxın zamanda qayıdacağından xəbər verir.

Döyüş postuna çatırıq. Post keçən ilin aprelində düşmən təxribatının qarşısının alınması zamanı işğaldan azad edilmiş yüksəkliklərdə qurulub. Burada bir abidə diqqətimizi çəkir. Aprel döyüşlərində hərbi hissənin qəhrəmancasına şəhid olan hərbi qulluqçularının xatirəsinə yaradılıb. Abidənin üzərində hərbi hissənin şəhid döyüşçülərinin adları və şəkilləri həkk olunub.

Abidənin önündə növbəni dəyişməyə hazırlaşan əsgərlər düzülüb. Bölük komandirinin şəxsi heyətlə iş üzrə müavini kapitan Nahid Rzayev əsgərlərlə növbəyə hazırlıqla bağlı söhbət aparır. Təcrübəli zabit əvvəlcə döyüş heyətinin üst-başını yoxlayır, səhhətləri ilə maraqlanır. Döyüş növbəsini aparmağa hər birinin tam hazır olduğuna əmin olduqdan sonra onlara abidəni göstərib deyir:

- Gördüyünüz bu abidədə şəkilləri əks olunan igidlərin canı bahasına azad edilib bu torpaqlar. Onlar kimi qorxmaz, mərd, vətənpərvər hərbçilərin davamçıları olmaq sizin borcunuzdur. Hər biriniz növbədə ayıq-sayıq durmalı, vəzifənizin öhdəsindən layiqincə gəlməlisiniz. Bizə əmanət olan bu torpaqları göz bəbəyi kimi qorumalısınız. Siz də onlar kimi cəsur, qorxmaz olun, layiqli xidmətinizlə onların ruhunu şad edin.

Şəxsi heyətlə iş üzrə zabitin söhbətindən sonra dəyişdirici manqa komandiri müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu Hafiz Kərimov növbəni dəyişmək üçün lazımi işlər aparır.



Postun digər şəxsi heyəti ilə salamlaşıb, buradakı şəraitlə tanış oluruq. Əsgərlərin istirahəti üçün hər cür şərait yaradıldığını müşahidə edirik. Düşmənlə birbaşa təmas xətti olmasına baxmayaraq burada yüksək məişət şəraiti və hərtərəfli təminat vardır.

Düşünürəm ki, gəzdiyimiz bu səngərlərin hər qarışında qəhrəmanlığın izi var. Aprel döyüşlərində adlarını tarixə qızıl hərflərlə yazan oğullarımız bu ərazilərdə şəhid olublar. İndi onların ruhu şaddır. Ona görə ki, onların uğrunda şəhid olduğu bu ərazilərə ordumuz nəzarət edir.

Əsgər Samir Sadıqov düşmən mövqelərini müşahidə edir. Qumbaraatan əsgərin hərbi xidmətə Şamaxı rayonundan çağırıldığını öyrənirik. On beş aydır ki, xidmət edən Samir "komandirimin tapşırığına əsasən qarşıdakı əraziləri nəzarətdə saxlayıram", - deyir.

Bizimlə söhbətləşən zaman əsgər diqqətini müşahidədən yayındırmırdı. Ona tapşırılan vəzifənin vacibliyini dərindən başa düşən əsgərlə sağollaşıb xidmətində uğurlar arzulayırıq.

Bu yüksəkliklərdə zabitlər Elnur Əliyev, Rasim Məmmədov, gizir Nicat İsgəndərov, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuları Ruhin Qəhrəmanov, Ayaz Hüseynov, əsgərlər Vüqar Süleymanov, Nurəddin Mirzəyev və başqaları döyüşərək şəhid olublar. İşğalçı erməni ordusunu məğlubiyyətə uğradaraq ata-baba torpaqlarımızı düşməndən azad ediblər. Onların canları bahasına işğaldan azad edilən bu torpaqlar indi əsgərlərimiz tərəfindən göz bəbəyi kimi qorunur.

Həmin əsgərlərdən daha birini tanıyırıq. Əsgər Anar Rəfiyev qəhrəman döyüşçülərimizin davamçısı olduğunu deyir. O, pulemyotu ilə döyüş növbəsi aparır. Altı aydır ki, hərbi xidmətdədir. Orduya Bərdə rayonundan çağırılan əsgər Rəfiyev pulemyot manqasının tuşlayıcısıdır.

"Mən çox qürurluyam ki, Lələtəpə yüksəkliyi ətrafındakı postda xidmət edirəm. Bu ərazilər uğrunda şəhid olan qəhrəmanlarımızın əmanətini qoruyuruq. Onların qəhrəmanlığı bizlərə mənəvi güc verir, döyüş ruhumuzu daha da artırır. Onlar Vətən üçün yaşadılar, Vətən naminə canlarından keçdilər. Düşmən yenidən təxribata əl atarsa, onları məhv etməyə, torpaqlarımızın qalan hissəsini də işğaldan azad etməyə həmişə hazırıq.”

Çətin ki, düşmən bir də ayağa qalxsın. Azərbaycan əsgərinin gücünə bələd olan düşmən, artıq yaxşı bilir ki, Azərbaycan Ordusu onlardan qat-qat güclüdür. Aprel döyüşlərində mühüm əhəmiyyətli əraziləri işğaldan azad edən ordumuz gücünü nəinki ermənilərə, hətta bütün dünyaya nümayiş etdirdi. Döyüş meydanında düşmənə göz açmağa imkan verməyən ordumuz həm müasir silah və texnikası, həm də yüksək döyüş qabiliyyətli əsgərləri ilə regionun ən güclü ordusu olduğunu bir daha sübut etdi. Həmin döyüşlərdə düşmənə qan udduran əsgərlərimizdən biri ilə salamlaşırıq. Bu əsgər də xalqımıza qələbə sevincini yaşadan igid oğullardandır.

Əsgər Balabəy Süleymanov döyüş növbəsini əsgər yoldaşına təhvil verir. Təhvil-təslimdən sonra əsgərlə söhbətləşirəm. Hərbi xidmətə Ucar rayonundan çağırılan Balabəy əsgəri xidmətinin son günlərini yaşayır. O, öz düşüncələrini bölüşür.

- Mən xidmətimi başa vurmağa hazırlaşan əsgər kimi cox qürurluyam. Bizi qoynunda bəsləyən ana Vətənimizə əsgəri borcumu layiqincə yerinə yetirmişəm. Həm də qürurluyam ki, aprel döyüşlərinin iştirakçısı olmuşam. Postun girişindəki abidəyə və hər bir azərbaycanlının qəlbinə adları əbədi yazılan qəhrəmanlarımızla çiyin-çiyinə döyüşmüşəm. Onların əmanətidir keşik çəkdiyim bu yerlər. Onları itirdiyim üçün həm kədərlənirəm, həm də qürurlanıram. Bu hissləri sözlərlə ifadə etmək çox çətindir. Xidmətimin sona çatmasına baxmayaraq yenidən bu yerlərdə döyüşməyə hər zaman hazıram.

Vətənini sevən, ona ürəkdən bağlı olan belə əsgərlərlə söhbətləşdikcə ordumuzla, əsgərimizlə bir daha fəxr edirik. Geydiyimiz formanın qürurunu yaşayırıq. Azərbaycan Ordusunun bütün əsgərlərinə ürəkdən sağ olun deyirəm ki, bu şanlı qələbəni bizlərə yaşadıb. Onlar bu əraziləri işğaldan azad edərək böyük qələbəmizə yol açıblar.

Əsgər Orxan İsmayılov da mövqedə döyüş növbətçiliyi aparır. Hərbi xidmətə Yevlax rayonundan çağırılıb. Atıcı əsgər fikirlərini bölüşür:

- 15 aydır ki, hərbi xidmətdəyəm. Düşmənlə üz-üzə xidmət etmək şərəflidir. Bizə qəhrəman oğullarımızın işğaldan azad etdiyi yüksəklikdəki döyüş postu əmanət edilib. Bu vəzifənin öhdəsindən gəlmək üçün əlimizdən gələni əsirgəmirik. Düşmən atəşkəsi tez-tez pozur. Lakin düşməndən qətiyyən qorxmur, onlardan qat-qat güclü olduğumuzu bilirik. Düşmənə layiqli cavab verərək onları susdururuq. Qəhrəmanların döyüş yolunu özümüzə örnək bilirik.

Belə vətənpərvər əsgərləri tanıdıqca bir daha əmin olursan ki, Vətənimiz etibarlı əllərdədir. Vətən keşiyində duran mərd əsgərlərə xidmətlərində uğurlar arzulayaraq "Vətənimiz onlara, onlar isə Allaha əmanət olsun" deyib sağollaşırıq...

**Leytenant**
**Mahmud MÖHBALIYEV,**
**"Azərbaycan Ordusu",**
**foto**
**Coşqun CƏFƏROVUNDUR**

---

## Ovqat

# Əsgəri salam

Uşaqlar sanki bir ayrı dünyanın sakinləridi. Riyakarlıqdan uzaq gözləri bütün gözəlliklərin var olduğu dürüst bir dünya yaradıb. O gözlərdə, sadəcə, sevgi var, inam var. Məndən, səndən, ondan - bütün bəşəriyyətdən asılıdır bu baxışların ömrü. Həmin dünyanı dünyalıqdan çıxaran da bizik, həmin dünyanı ecazkar eləyən də...

Bir uşaq inamlı addımlarla oxuduğu məktəbin adını daşıdığı şəhid Seymur Məmmədovun büstünə tərəf gedirdi. Bu bənzərsiz yerişə biganə qala bilmədim. Uşaq büstün qarşısında dayanıb əsgəri salam verdi. Bir anlıq nə düşündüsə, əlləriylə büstə toxundu. Bu anlarda sanki ətraf aləmi unutmuşdu. O idi, büst idi, bir də düşüncələri.

"Sən Vətənimizin, bizlərin gələcəyi üçün canından keçdin. Biz yaşda uşaqların Vətənə borcu yaxşı oxumaqdır. Biz də dərslərimizi yaxşı oxumalı, Vətənimizə, millətimizə layiqli vətəndaşlar olmalıyıq..." - deyirdi sanki. Bu səssiz monoloq şagirdin şəhidə hesabatıydı, andı idi...

Uşaqların özlərinə məxsus düşüncələri, xəyalları, fikirləri var. Onlar hər şeyi öz düşüncələrinə uyğun sözlərlə anladırlar. Dediklərinə inanırıqmı, inanmırıqmı? - onların dilindən səslənən hər kəlmənin öz anlamı var. Onu anlamaq üçün uşaqların gözlərinin dərinliyinə baxmağı, ürək döyüntülərini duymağı bacarmalısan.

Zeydlə baxışlarımız bir anlıq toqquşdu. Onun baxışlarında qisas qığılcımı gördüm. O gözlərin dərinliyində nələr yox idi? O anda qəlbinin səsini də duyurdum, hiss edirdim. Çünki, qisas hissi ilə alışıb yanan gözləri qəlbindəki bütün hisslərini səssiz-səmirsiz anladırdı.

Şəhidlik adi ölüm deyil, - deyirdi o baxışlar. - Şəhidlik Vətən üçün, torpaq üçün, böyük amallar üçün candan keçməkdir. Şəhidlik ömür payını gələcək nəsillərin xoşbəxtliyinə bağışlamaqdır.

Milli Qəhrəman Samid İmanovun ailəsini ziyarət edərkən körpə Turanın gözlərindəki təbəssümün şahidi olanda da, mənə elə gəlirdi ki, atası ona Vətən sevgisinin nəhayətsizliyini anladır. Ürəyim həmin anda bir körpənin səssiz söhbətindən riqqətə gəlmişdi...

Gözlərindəki işığı qəlbindən süzülüb gələn aydınlığın, saflığın işarəsi bildim. Və inandım...

Vətənə, torpağa, bayrağa, xalqa sevgi ilə yaşayıb böyüyənlər Vətən sevgisinin, Vətənə bağlılığın, Vətənin müqəddəsliyinin nə olduğunu mükəmməl dərk edirlər. Həyatlarının hər dönəmində Vətən kəlməsinin qürurunu yaşayırlar. Vətəni dünyanın hər cür təhlükəsindən qoruyan, lazım gələrsə, onun uğrunda canından keçməyə hazır olan əsgərlərə minnətdarlıq hissi ilə böyüyürlər. Aprel döyüşlərindən sonra bu hisslər daha da güclənib. Və bu salamı Seymur Məmmədovun timsalında Mübarizə, Fəridə, Samidə, Murada, Yusifə... bir sözlə, Azərbaycan şəhidliyinə ehtiram bildim.

**Leytenant**
**Günay TAĞIYEVA,**
**"Azərbaycan Ordusu"**

# Vətəni qoruyanlar

Doğma yurdumuza bahar fəsli qədəm qoyub. Ana təbiət yaşıllığa bürünür. Ağaclar çiçək açır, çəmənlər, düzənlər yaşıllaşır. Təbiət qoynunda məskunlaşan insanlar yaz qayğıları ilə məşğuldurlar. El ağsaqqalı Səfər kişi deyir ki, qəhrəman Azərbaycan əsgərlərinin sayəsində sakitlikdir. "Sağ olsunlar, Prezidentimiz, Ali Baş Komandan İlham Əliyev, Müdafiə Nazirliyinin rəhbərliyi. Ötən illərlə müqayisədə ordumuzun gücü, qüdrəti daha da artıb, böyük islahatlar həyata keçirilib. Ordu ilə xalqın birliyi möhkəmlənib. İnanıram ki, ölkəmizin ərazi bütövlüyü tezliklə təmin olunacaq."

Ağsaqqal sözünə əlavə edərək bildirir ki, qədim Tovuzun tarixinə nəzər salsaq görərik ki, zəngin hərbi ənənələrimiz var. Tarix öz-özünə yaranmır. Tarixi yaradan bu yerlərin mərd, qəhrəman insanları olub. Bu gün də belədir. Qəhrəmanların yüzlərlə, minlərlə davamçıları var. Böyük Vətən müharibəsində Yusif Sadıqov, Mərdan Musayev, Məstan Əliyev kimi qəhrəmanlar bütün ölkədə tanınıblar. Naiq Yusifov, Qasım Rzayev müstəqil dövlətimizin qəhrəmanlarıdır. Onlar doğma torpaqlarımız uğrunda döyüşlərdə göstərdikləri rəşadətlərə görə Milli Qəhrəman adına layiq görülüblər. Ötən ilin aprel döyüşlərini xatırladan Səfər kişi bununla böyük qələbənin başlanğıcının qoyulduğunu bildirdi.

Hərbi hissədə mayor Emin Vəliyev bildirir ki, orduya ölkə rəhbərliyi tərəfindən göstərilən böyük qayğı, həyata keçirilən islahatlar şəxsi heyətin döyüş ruhunu daha da yüksəldib.



Həmsöhbət olduğumuz zabitlə ön xəttə gedirik. Ötüb keçən illərə birgə nəzər salırıq. Görülən işlər, həyata keçirilən tədbirlər hər birimizi qürurlandırır, qəlbimizə, könlümüzə rahatlıq gətirir.

Bölük komandiri baş leytenant Şamxal Abışov Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin yetirməsidir. "N" hərbi hissəsində xidmətə başlayıb. Bu gün isə cəbhə bölgəsində xidmətini davam etdirir. Nümunəvi xidmətə görə fəxri fərmanlara, qiymətli hədiyyələrə layiq görülüb. Komandirlik etdiyi şəxsi heyət döyüş tapşırıqlarına müntəzəm əməl edir. Taktiki, mühəndis, atəş hazırlığı məşğələlərinə əsgərlər böyük həvəs göstərirlər. Təlimlərə isə xüsusi önəm verilir. Hər bir əsgərin məqsədi etibarlı, mətin Vətən müdafiəçisi olmaqdır.

İctimai-siyasi hazırlıq dərslərində isə əsgərlərə regionda, dünyada baş verən hadisələrdən, dövlətçilik ənənələrimizdən, xalqımızın müstəqillik uğrunda mübarizəsindən ətraflı məlumatlar verilir. Çünki hər bir şəxs qoruduğu Vətənin qədim tarixini, milli adət-ənənələrini, dövlətçilik tarixini bilməlidir.

Əsgərlər Tural Hüseynzadə, Laçın Adıgözəlzadə, Məhəmməd Emirov, Kənan Dəmirov və başqaları xidmətdə daha çox fərqlənirlər. Onlar bildirirlər ki, xidmət müddətində kifayət qədər hərbi biliklərə, təcrübəyə sahibləniblər. Önümüzdə qərar tutan guşə Milli Qəhrəmanlara həsr olunub. Qasım Rzayevin, Naiq Yusifovun, Çingiz Qurbanovun Vətən uğrunda göstərdikləri rəşadətlər, tükənməz Vətən sevgisi hər bir kəsi qəhrəmanlığa, yenilməzliyə səsləyir. Əsgər Tural Hüseynzadə deyir:

- Milli Qəhrəmanlar hər birimizin ideallarıdır. Biz onlar kimi Vətən uğrunda döyüşlərə həmişə hazırıq və onların davamçıları kimi xidmət edirik.

Qarşı tərəflər düşmən ərazilərdir. Ara-sıra atəş səsləri eşidilsə də, əsgərlərimizin sayıqlığı, yüksək döyüş hazırlığı onlara bəd niyyətlərini, məkrli planlarını həyata keçirməyə imkan vermir. Səngər həyatı yaşayan igidlər qarşı tərəfin bütün hərəkətlərini diqqətlə izləyirlər. Hər hansı bir hadisə baş verərsə, qabaqlayıcı tədbirlər həyata keçirirlər.

Vətənə xidmətdən qürur duyduğunu deyən müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu İskəndər Teymurov əsgərliyini başa vurduqdan sonra yenidən ordu həyatına qayıdıb. 3 ildir ki, torpaqlarımızın müdafiəçiləri sırasındadır. İskəndərin uşaqlıq illəri də müharibənin ağrılı-acılı günlərinə düşüb. Səhər-axşam güllə, atəş səslərinə oyanıb. Elə buna görə də Vətənin keşiyində dayanmağı hər şeydən üstün tutub. İ.Teymurov deyir:

- Mən də Vətəni qoruyanlar sırasında olmağımdan qürur hissi keçirirəm. Bizə göstərilən diqqət, qayğı, etimad döyüş ruhumuzu daha da artırır. Çalışırıq ki, qarşımızda duran vəzifələri layiqincə yerinə yetirək.

Düşmən tərəfi nəzarətdə saxlayan əsgər Orxan Hüseynli Biləsuvar rayonunun yetirməsidir. Atası Qarabağ uğrunda döyüşlərin iştirakçısıdır. Babası Böyük Vətən müharibəsində şərəfli döyüş yolu keçib. İndi isə Orxan ata babasının davamçısı kimi xidmət edir, mərd, mübariz əsgərlərdəndir. Xidmət müddəti başa çatsa da, özünü həmişə Vətənin əsgəri hesab edəcək. O, ürək sözlərini belə ifadə edir:

- Xidmət müddətimiz başa çatır, ordu həyatında qazandıqlarımız çoxdur. Burada etibarlı, fədakar dostlar, silahdaşlar qazandıq. Mətinliyə, mübarizliyə, qorxmazlığa alışdıq. Vətənimizə gərəkli olan hərbi peşələrə yiyələndik. Müxtəlif atıcı silahların, texnikanın dilini öyrəndik. İstənilən vaxt silahdaşlarımla birgə döyüşlərə atılmağa hazırıq. Heç bir qüvvə bizi bu yoldan döndərə bilməz. Vətən torpaqlarını düşməndən azad edib, ölkəmizin ərazi bütövlüyünü bərpa etməliyik.

Postda döyüş növbətçiliyində olan əsgər Seymur Muxtarov Lerik rayonundan hərbi xidmətə çağırılıb. 9 aydır ki, hərbi xidmətdədir. Baş atıcıdır. Ailədə iki qardaşdır. Böyük qardaşı Seyran da cəbhə bölgəsində xidmətini davam etdirir. Qardaşların ailələrinə hərbi hissə komandanlıqları tərəfindən təşəkkür məktubları da ünvanlanıb. Qorxmaz, cəsarətli, vətənpərvər övladlar yetirən Muxtarovlar ailəsinə məktublarda minnətdarlıq ifadə olunub.

Növbəti həmsöhbətim isə Ruhid Rüstəmovdur. Əslən Füzuli rayonundan olan əsgərin valideynləri Sumqayıt şəhərində məskunlaşıblar. Özü də Sumqayıt şəhərində anadan olub. Ruhid doğma yerlərə qayıdacaqlarına qəti şəkildə inanır.

- Ötən ilin aprel döyüşləri ordumuzun gücünü, qüdrətini göstərdi. Düşmənə havadarları dəstək versə də, ordumuzun əks-hücumu onlara yaxşı dərs oldu. Respublika Prezidenti, Ali Baş Komandan İlham Əliyev hadisələr zamanı bildirdi ki, əgər erməni əsgərləri ölmək istəmirlərsə, rədd olsunlar Azərbaycan torpaqlarından. Biz Ali Baş Komandanın əmrini yerinə yetirməyə qadirik və işğalçılardan torpaqlarımızı azad etmək iqtidarındayıq. Bizim başqa torpaqlara ehtiyacımız yoxdur. Qədim ata-baba torpaqlarımızı, ana yurdumuzu düşmənlərdən azad edəcəyik. Bu yolda hər birimiz Vətən fədaisi olmağa hazırıq.

Baharın ilk günlərində ön xətdə qələbə ab-havasına köklənmiş zabit və əsgərlərimizdən xoş ovqatla ayrılırıq. İnanırıq ki, növbəti bahar sevinclərini işğaldan azad olunmuş Vətənimizin hər bir guşəsində yaşayacağıq.

**Mübariz MUSAYEV,**
**"Azərbaycan Ordusu"**

*Gənc zabitlərimiz*

# "Azərbaycan əsgəri bu torpaq uğrunda mübarizəyə hazırdır"



Hərbçi peşəsi hər zaman şərəfli peşə olub. Azərbaycan xalqı bu peşə sahiblərinə həmişə hörmət, ehtiram bəsləyib. Peşəkar hərbçilər daim bunun məsuliyyətini, mənəvi cavabdehliyini hiss ediblər. Axı onlara ən mühüm vəzifə - Vətənin qorunması etibar edilib.

Zabit tabeliyində olan şəxsi heyətə nümunədir. Qeyd etmək yerinə düşər ki, nümunəvi zabit adını işlədəndə nədənsə, ilk növbədə, insanın gözü önünə ümummilli lider Heydər Əliyev gəlir. Çünki gənc zabitlərə işıq Ulu Öndərin biliyindən, ziyasından düşür. Bəllidir ki, Silahlı Qüvvələrin döyüş hazırlığının səviyyəsi təkcə hərbi texnikadan deyil, bu texnikanı idarə edə biləcək savadlı zabitlərdən də əhəmiyyətli dərəcədə asılıdır. Bu baxımdan Azərbaycanda beynəlxalq standartlara cavab verən hərbi təhsil sisteminin formalaşdırılması məhz Ümummilli Liderin adı ilə bağlıdır.

Hansı ixtisas üzrə xidmətə başlamasından asılı olmayaraq, bu peşə sahibləri gənclərin, əsgərlərin təcrübə toplamasında yardımçı olurlar. Haqqında danışacağımız zabit - baş leytenant Qalib Cavadov Sabirabad rayonunun Qaratəpə kəndində anadan olub.

Bakı Dövlət Universitetini bitirməsinə baxmayaraq, artıq 10 ildir ki, hərbçi peşəsini seçib. 2006-cı ildə Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində kurs keçdikdən sonra artilleriya bölməsində taqım komandiri kimi xidmətə başlayıb və baş zabit vəzifəsinə yüksəlib.

- Hər zaman şərəf və ləyaqətlə dövlətimə, xalqıma və orduma xidmət etmişəm, - deyə baş leytenant Q.Cavadov söhbətə başladı. - Təcrübəli zabitlərimizin əməliyyat və döyüş tapşırıqlarını yerinə yetirən zaman göstərdikləri şücaətləri həmişə kənardan heyrətlə izləmişəm və əxz etməyə çalışmışam. Bu gün biz öyrəndiklərimizi gənc nəslə ötürməyə çalışırıq.

Aprel döyüşləri zamanı "N" hərbi hissəsinin artilleriya bölməsində xidmət etdiyini və verilən tapşırığın tabeliyində olan şəxsi heyət tərəfindən layiqincə yerinə yetirildiyini xatırlayan həmsöhbətim tarixi qələbənin yaddaşından heç zaman silinməyəcəyini bildirdi: "Talış istiqamətində gedən döyüşlərdə xidmət etdiyim artilleriya bölməsi də böyük nailiyyətlər əldə etdi. Şəxsi heyətimiz düşməndən çəkinmədən hərəkət edirdi. Sığınacağa çəkilmək heç yadımıza da düşmürdü. Əsgərlərimizin orada göstərdiyi qəhrəmanlıqlar yadımdan çıxmır. Həmin döyüşdə Azərbaycan əsgəri sübut etdi ki, biz varıq, bu torpaq üzərində qan tökməyə hazırıq. Onu da qeyd edim ki, Ali Baş Komandanımız bizə nə vaxt komanda versə, qələbəyə layiq olan Azərbaycan əsgəri, aprel döyüşlərinin qalibi Azərbaycan hərbçisi bu əmri layiqincə yerinə yetirəcək".

Təcrübəli komandir və zabitlərin peşəkarlığından həvəslə danışan zabitə görə, aprel zəfərində bu peşəkarlıq öz bəhrəsini verdi.

"Arzum budur ki, tezliklə bütün torpaqlarımıza nəzarət edək. Bu problemin həlli gələcək nəsillərə qalmasın."

Söhbətimizin sonunda həmkarım iki oğul atası olduğunu və ən böyük arzusunun hər iki övladının onun davamçıları olmasını arzuladı.

**Kapitan**
**Məhəmməd ƏLİYEV,**
**"Azərbaycan Ordusu"**

# Cocuq Mərcanlıda 995 qəlpə və iki minanın partladıcısı aşkar edilib

Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentliyin (ANAMA) mütəxəssisləri aprelin 17-də Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndində gün ərzində 995 qəlpə və tank əleyhinə iki "TM-57" minasının partladıcısını (MVZ-57) aşkar ediblər. Həmin sursat zərərsizləşdirilməsi üçün götürülüb. Ümumilikdə 33 min 444 kvadratmetr ərazi yoxlanılıb.

ANAMA-dan AZƏRTAC-a bildiriblər ki, 59 gün ərzində agentlik tərəfindən Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndində 151 evə və yeni avtomobil yolunun keçəcəyi əraziyə baxış olub. İyirmi yeddi partlamamış hərbi sursat aşkar olunaraq zərərsizləşdirilib. Baxış zamanı 1 milyon 890 min 124 kvadratmetr ərazi yoxlanılıb.

Agentlik tərəfindən yanvarın 1-dən aprelin 17-dək 5130 partlamamış hərbi sursat, tank əleyhinə 83 mina və piyada əleyhinə 9 mina aşkar olunaraq zərərsizləşdirilib.

Düşüncələr

# Qələbə, Qələbə, yalnız Qələbə!..

*Aprel döyüşlərinin iştirakçılarına ithaf edirəm*

Aprel döyüşləri Azərbaycan Ordusunun gücünü, qüdrətini təsdiqlədi, min illərin o üzündən boy göstərən dövlətçilik tariximizə sədaqətini təsdiqlədi, Azərbaycan əsgəri, sənin Vətən, torpaq sevgini təsdiqlədi...

Səngərin o üzünə baxanda qaşların çatılır, yumruqların düyünlənir, əlin avtomatının qundağını sıxır. İşğala son qoymağa can atırsan, milli-xəlqi ruhumuzun harayı da, ürəyin də səni sərhəd bütövlüyümüzü təmin edəcəyin günə çəkir. Həmin gün indimizə də, yüz-yüz illərin, min-min illərin o üzünə də gözaydınlığı olacaq, Azərbaycan əsgəri! Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin "Azərbaycan torpaqlarında ikinci erməni dövlətinin yaranmasına imkan verməmərik" - fikrini sən, sənin ruh qardaşların, sizdən sonra xidmətə başlayacaq oğullar təsdiqləyəcək. Sizin Vətənə sədaqətiniz ötən ilin aprelində yazda çaxan şimşək oldu, yağışdan sonra daşan, daşdanan selə döndü - coşdu, kükrədi. Düşmən "üzü suluykən" çəkilib getməsə, bu coşqu daha güclü, daha əzmkar, daha qətiyyətli olacaq. Bunu siz də bilirsiniz, biz də, dövlətimizə, dövlətçiliyimizə əyri baxanlar da...

Sən zamanında dünyaya yol göstərən bir xalqın əsgərisən, Azərbaycan əsgəri! Kəhər atı kişnəyən, qılıncı kəsərdən düşməyən, yay-oxunun kirisi boşalmayan igidlərin ruhunun işığı ruhuna hopub.

Çöldə-düzdə düşmən teyləyənlərin, tərs əsən yelləri yolundan eləyənlərin, dostu duz-çörəklə, düşməni kəsərli qılıncla qarşılayanların ruh qardaşısan. Qorunan sərhədin bu üzünə daş atanlara



gen dünyanı dar eləyənlərin, Vətən deyib bağır basdığın ərazilərə xor baxanları xar eləyənlərin ruhu sənə alqışçıdı...

Ötən ilin aprelində əsgər qardaşlarının qazandığı qələbə sənin də qüururunun təntənəsi oldu, əsgər qardaşım! Onda məktəbliydin. İgidlər haqqında məqalələr, kitablar oxuyaoxuya, verilişlərə baxa-baxa əsgərləşirdin, igidləşirdin. Nə oxuyurdunsa, torpaq üçün, Vətən üçün oxuyurdun. Sənə elə gəlirdi ki, günlər ləng ötüşür.

O günlərdə birinci Qarabağ müharibəsinin iştirakçıları kimi, tələbə gənclərimiz kimi minlərlə həmyaşıdın da döyüşlərə can atırdı. Buna ehtiyac olmasa da, can atırdı. Vətən sevgisi onları döyüşlər gedən ərazilərə çəkirdi. O həmyaşıdların döyüşmək, torpaqlarımızı işğaldan azad etmək istəyirdi, aidiyyəti qurumlara, Müdafiə Nazirliyinə müraciət edirdi. Bəlkə sən də onların sırasında olubsan?!.

Yaşının azlığına təəssüflənənlər də olub. Sən də təəssüflənibsən, şübhəsiz. O neçə gündə zamanı qabaqlamaq, Mübarizləşən əsgərlərin sırasında olmaq istəyi hər birinizi yaşarı bir amalın zərrəsi eləmişdi. Qələbə!..

İndi əsgərsən. İndi səngərdəsən. Sən səngərin səngərisən, Azərbaycan əsgəri! Yadındamı, kəmələşəndə bir bayatı demişdim. Əminəm ki, unutmayıbsan: əsgər qardaşlarının baxışları dedizdirmişdi bu bayatını, o baxışları bayatılaşdırmışdım:

...qala dərdi,
Ocaq çat, qala dərdi.
Can verərəm, qoymaram
Bu dərdlə qala dərdi!..

Bəşər sülh istəyir...

Azərbaycan üçün sülh torpaqlarımız işğaldan azad ediləndə başlayacaq, Azərbaycan əsgəri!..

Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev deyib ki, aprel döyüşləri dərsliklərə salınmalıdır. Bu tarixi sənin ruh qardaşların yazdı. Siz daha möhtəşəmini yazacaqsınız. Son nöqtəni sənin, əsgər qardaşının atacağı son güllə qoyacaq. Şuşada, Cıdır düzündə son güllənin səsini qələbə uvertürasının başlanğıcı biləcəyik. Xalq şairi Zəlimxan Yaqubun bir misrasını xatırlayaq: Qələbə, Qələbə, yalnız Qələbə! Sənə yerlər də alqışçıdı, göylər də. Sənə "Azərbaycan Ordusu" da alqışçıdı!..

**Rəşid HÜSEYNOV,**
**əməkdar jurnalist**

# Xəbərlər:
## hadisələr, faktlar

### Prezident Ərdoğan: "Referendumun nəticələrinin ölkəmiz və millətimiz üçün xeyirli olmasını arzu edirəm"



Referendumun nəticələrinin ölkəmiz və millətimiz üçün xeyirli olmasını arzu edirəm.

Bu sözləri Türkiyə Prezidenti Rəcəb Tayyip Ərdoğan referendumla bağlı səsvermənin nəticələrinin elan edilməsindən sonra keçirdiyi mətbuat konfransında deyib.

Səsvermədə fəal iştirak etdiyinə görə türk xalqına təşəkkür edən Prezident Ərdoğan bildirib: "Bu, tarixi hadisədir. Bu gün 200 illik sistemin dəyişdirilməsi barədə tarixi qərarın verildiyi gündür. Bu dəyişikliklərə "hə" deyənlərə minnətdarlığımı bildirirəm".

"Biz qarşılaşacağımız hər problemi, çətinliyi, böhranı aradan qaldırmaq iqtidarındayıq. Bunun bariz nümunəsini 15 iyul hadisələri zamanı gördük", - deyə Prezident Ərdoğan əlavə edib.

### İranda Ordu Günü qeyd olunub



Aprelin 18-də İran İslam Respublikasında Ordu Günü qeyd olunub. İran silahlı qüvvələrinin yaranması günü münasibətilə hərbi parad keçirilib.

Hərbi paradda çıxış edən Prezident Həsən Ruhani bəyan edib ki, İran Ordusunun gücü və qüdrəti heç bir ölkəyə qarşı yönəlməyib. Ordunun gücü yalnız ölkənin müdafiəsi üçündür. Prezident diqqətə çatdırıb ki, bəzi dövlətlərin orduları beynəlxalq terrorçuluğa dəstək verirlər. İranın bütün dövlətlərlə yaxşı əlaqələr qurmaqda maraqlı olduğunu bildirən Prezident qonşu dövlətlərlə münasibətlərə xüsusi əhəmiyyət verildiyini vurğulayıb.

### Pakistanda Pasxa bayramında partlayış törətmək istəyən terrorçu-kamikadze tutulub



Pakistan mətbuatının verdiyi məlumata görə, Laxor şəhərində xristianların Pasxa bayramında partlayış törətmək istəyən İŞİD terrorçu-kamikadzesi tutulub.

Ordunun nümayəndəsi Asif Qafur bildirib ki, özlərini şübhəli aparan üç adamı tutmaq istərkən atışma baş verib və terrorçuların biri öldürülüb, digəri isə qaça bilib, 19 yaşlı Norin Leqxarinin üzərindən isə iki partlayıcı qurğu və dörd qumbara tapılıb.

Hərbçilər Xaydarabad şəhərindəki tibb məktəbinin tələbəsi Norin Leqxari adlı qızı tutub və o iki kişi ilə birgə Laxordakı kilsədə xristianlar Pasxa bayramını qeyd edərkən terakt törədilməsi faktını təsdiq edib.

### İraqın Daxili İşlər Nazirliyi İŞİD liderinin Suriyada gizləndiyini təsdiqləyib



İŞİD terror qruplaşmasının başçısı Əbu Bəkir əl-Bağdadi Suriya ərazisində gizlənir. Bu barədə məlumatı İraqın Daxili İşlər Nazirliyi də təsdiqləyib.

Hazırda İŞİD yaraqlıları İraqın 6,8 faizinə, əsasən də Əl-Qaim, Tall-Afar, Əl-Huveycə yaşayış məntəqələrinə nəzarət edirlər. Həmçinin Mosul şəhərinin qərb məhəllələrinin 30 faizə yaxını qruplaşmanın nəzarəti altındadır. Burada hökumət qüvvələri əl-Bağdadinin 2014-cü ildə xilafət qurmaq planlarını elan etdiyi Ən-Nuri məscidi istiqamətində hücumlar edir.

**AZƏRTAC-ın materialları əsasında**

# Ermənistanın rəhbər şəxsləri bu ölkənin "yeni silahları" barədə absurd məlumatlar verməklə məşğuldurlar



*Ermənistanın güc strukturlarını təmsil edən şəxslər, demək olar ki, hər gün fantastik ideya ilə çıxış edərək bu ölkənin "müdafiə qüdrəti" və "yeni silahları" barədə öz ictimaiyyətinə absurd məlumatlar sırımaqla məşğuldurlar.*

Bu fikri AZƏRTAC-a hərbi mütəxəssis, ehtiyatda olan polkovnik Kamal Hüseynov Ermənistan hava hücumundan müdafiə qoşunlarının rəis müavini polkovnik Artur Poqosyanın bu ölkənin "Verba" daşınan zenit-raket kompleksləri əldə etməsi iddiası ilə bağlı danışarkən bildirib.

Hərbi ekspert qeyd edib ki, bu dəfə erməni xalqına təsəlliverici xəbəri çatdıran Ermənistanın hərbi hava qüvvələri adlanan qurumun rəis müavini Artur Poqosyan olub. O, erməni mətbuatına bildirib ki, ötən ilin aprel hadisələrindən dərs çıxaran Ermənistan Müdafiə Nazirliyi havadan müdafiəni gücləndirmək məqsədilə çoxlu sayda "Verba" daşınan zenit-raket kompleksləri əldə edib. Daim qorxu içərisində yaşayan Ermənistan vətəndaşlarını sakitləşdirmək üçün guya indiyə kimi onların strateji müttəfiqi tərəfindən heç bir ölkəyə deyil, yalnız Ermənistana verilən bu silahın bölgədəki "güc balansını" Yerevanın xeyrinə dəyişməsi cəfəng fikri də, yəqin ki, ancaq Poqosyan kimisinin fikrinə gələ bilərdi.

"Hazırda hər iki ölkənin qüvvələr balansını yaxından öyrənən və vəziyyəti ətraflı təhlil edən istənilən beynəlxalq ekspert Azərbaycanın Ermənistandan hərbi baxımdan qat-qat üstün olduğunu birmənalı şəkildə təsdiq edir. Ermənistandan fərqli olaraq, ölkəmizin maliyyə imkanları ordumuz üçün kifayət edəcək miqdarda ən müasir silah, döyüş texnikası alınması ilə yanaşı, həm də hərbi-sənaye komplekssinin inkişaf etdirilməsinə imkan verir. A.Poqosyan onu da dərk etməlidir ki, hazırda dünyada aparılan müasir müharibələrin səviyyəsi və formatı dəyişərək artıq zehni inkişaf səviyyəsində olan silahların tətbiqinə üstünlük verilir. Bunu isə aprel döyüşləri zamanı Azərbaycan Ordusu sərəncamında olan ən müasir və məhvedici gücə malik silahların bir qismini tətbiq etməklə bir daha təsdiq etdi. Bir sözlə, əgər məlum hərbi lətifəni bir qədər başqa şəkildə ifadə etsək, Ermənistandakı "Verba"lar, yəqin ki, ərazini örtəcək, amma müdafiə edə bilməyəcək, - deyə Kamal Hüseynov bildirib.

# Yavər Camalov: 10-dan çox ölkənin müvafiq qurumlarına hərbi məhsullarımız ixrac olunur



Bu gün 10-dan çox ölkənin müvafiq qurumlarına Azərbaycanın istehsalı olan hərbi məhsulların ixracı həyata keçirilir. Hazırda bağlanmış müqavilələrin dəyəri 101 milyon ABŞ dolları təşkil edir. Bu məbləğin 57 milyon dolları icrada olan müqavilələrdir, qalan 44 milyon dolları isə qarşı tərəfdən son istifadəçi sertifikatları təqdim edildikdən sonra qüvvəyə minəcək. İxrac edilən məmulatlardan bütün növ döyüş sursatlarını, müasir atıcı və artilleriya silahlarını, pilotsuz uçuş aparatlarını, zirehli texnikaları və s. göstərmək olar.

AZƏRTAC xəbər verir ki, bu sözləri Müdafiə sənayesi naziri Yavər Camalov Prezident İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2017-ci ilin birinci rübünün yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında deyib.

Y.Camalov qeyd edib ki, mütəmadi olaraq həm ölkə daxilində, həm də xarici ölkələrdə keçirilmiş beynəlxalq müdafiə sərgilərində iştirakımız ixrac sahəsində uğurlar qazanmağa imkan verib. Ölkə sənayesinin dayanıqlı inkişafının təmin edilməsinin əsas istiqamətlərindən olan ixrac potensialının genişləndirilməsi və idxalın yerli istehsalla əvəzlənməsi ilə bağlı nazirlikdə məqsədyönlü işlər aparılır. Bu məqsədlə məmulatların ixracı üzrə müqavilələr bağlanıb və icrasına başlanılıb.



*Hərbi ənənələr, yeniliklər*

# Zenit raket kompleksi "Osa"



"Osa" avtomatlaşdırılmış Sovet zenit-raket kompleksidir. Bu kompleks müxtəlif hava şəraitində istifadə edilir və bütün döyüş əməliyyatlarında motoatıcı bölmələrin qüvvə və vasitələrini qoruyur. Onun hazırlanmasına 1969-cu ildə başlanıb, 1970-ci ildən 1971-ci ilin fevralına qədər sınağı keçirilib və silahlanmaya qəbul edilib. Kompleks 4 idarəolunan 9M33 raketi, onun "Osa-AKM" modifikasiyası isə altı 9M33M3 raketi ilə təchiz edilib. Döyüş maşını olan 9A33B hərəkətdə olan hava hədəflərini aşkar etməyə və tanımağa qadirdir. Qısa müddət ərzində hədəfi iki raketlə vura bilər. Şassisi üç oxludur, mühərriki dizellidir, suda hərəkət etmək üçün fəvvarə ilə təchiz olunub. Əsas hissələri (şassisi) İl-76 təyyarəsi və dəmiryolu nəqliyyatı ilə daşınır. Hədəfləri aşkaretmə və radiolokasiya stansiyası yüksək dərəcədə maneələrdən mühafizə olunur.

9K33 zenit raket kompleksinin çəkisi 18 ton, heyəti 5 nəfərdən ibarətdir. Onun gövdəsinin uzunluğu 9140 mm, eni 2750 mm, hündürlüyü 4200 mm (radarla) təşkil edir. Atəş uzaqlığı 1,5-10 kilometrə qədərdir. Mühərrik 300 at gücündədir. 9K33 raket kompleksinin şose yolda sürəti saatda 70 kilometrdir, 6x6 təkər formulalarından istifadə edilir. Su hövzələrindən keçməyə qadirdir.

**Hazırladı:**
**Svetlana YUSUBOVA,**
**"Azərbaycan Ordusu"**

## Kristofer Qann: Qafqazşünasların Birinci Beynəlxalq Forumu regionda sülhə töhfələr verəcək

Qafqaz böyük tarixə malik və dünyaya örnək olacaq bir regiondur.

AZƏRTAC xəbər verir ki, bu fikri Bakıda keçirilən Qafqazşünasların Birinci Beynəlxalq Forumunda ABŞ-ın Koastal Karolina Universitetinin professoru Kristofer Qann deyib.

Amerikalı professor bu Forumda iştirak etməyin onun üçün şərəf olduğunu deyib. O, dünyada Qafqaz regionuna diqqətin ayrılmasının vacibliyini bildirərək deyib: "Multikulturalizm nöqteyi-nəzərindən bu region dünyaya örnəkdir. Biz bu Forumda Qafqaz regionundakı vəziyyəti nəzərdən keçirəcəyik. Əminəm ki, bu Forumun nəticələri elmimizə, sülhə töhfələr verəcək".



*Redaksiyamızın poçtundan*

# Böyük inam

Hörmətli redaksiya!

Qəzetinizin ötən sayında oxuduğum "Siz də əsgər olacaqsınız" məqaləsi məni də, sinif yoldaşlarımı da duyğulandırdı. Bizdən bir neçə yaş böyük gənclərin düşüncələrindən biz də qürurlandıq. Əmin olduq ki, müharibəyə cəlb edilən dövlətin hər bir vətəndaşı əsgərliyə getmək, Vətənə xidmət etmək istəyir. Yəni, sən vətəndaşsansa, üzərinə düşən vəzifələri daha məsuliyyətlə, daha həssaslıqla yerinə yetirməlisən. Bilməlisən ki, sənin də fəal həyat mövqeyin qələbəyə xidmət edir.

Sinfimizdə oxuyan oğlanlar aprel zəfərini böyük qürurla, böyük sevgilərlə xatırlayır, yaşayırlar. Onların dedikləri bir vətəndaş kimi mənim də könlümü telləndirir: ordumuz güclüdür, torpaqlarımızı işğaldan azad etməyə qadirdir. Biz də əsgər olacağıq, işğaldan azad edilmiş torpaqlarımızda xidmət edəcəyik.

Bu, böyük inamdır. Bu inam xalqın inamıdır. Məqalədə deyilənləri bütün çağırışçılar yaşayır. Mənim sinif yoldaşlarım da belə düşünür.

Cıdır düzündə olmamışıq, İsa bulağını, Kəlbəcərin yaylaqlarını, Zəngilanın Şükürütuz yüksəkliyini, Füzulinin Ərgunəş dağını görməmişik. O yerlər uğrunda döyüşənlərin bacı-qardaşı kimi gedəcəyik, o torpaqlardan aralıda illərlə yaşamış ata-anaların övladları kimi gedəcəyik. Bu ziyarət ehtiram ziyarəti olacaq.

Bir dəfə tənəffüsdə kiminsə zümzümə elədiyi bir misra - "Könlüm keçir Qarabağdan" - hamımızın diqqətini çəkdi. Əlbəttə, Qarabağda olmaq, Qarabağ haqqında danışmaq hamımızın könlündən keçir. Əslində, könlümüz heç zaman Qarabağdan uzaq olmayıb.

Döyüşlərdə şəhid olanları qardaşımız bilmişik, əsgərlərimizin əlini sıxmaq istəmişik. Qələbədən sonra onlar gələn yola gül-çiçək səpənlərin sırasında biz də olacağıq. O günə az qalıb.

Azərbaycan əsgəri bizlərə 2016-cı ilin aprel ovqatını daha geniş miqyasda, daha möhtəşəmliklə yaşadacaq. Axı onlar Azərbaycanın əsgərləridir!..

**Hüsniyyə İDRİSOVA**

# İdman

## "Raquf Orucov Kuboku" turniri keçiriləcək




Gənclər və İdman Nazirliyinin, Azərbaycan Cüdo Federasiyasının dəstəyi və "Judo Club 2012"nin təşkilatçılığı ilə aprelin 20-də 21 yaşadək oğlanlar və qızlar arasında cüdo üzrə klub komandaları arasında beynəlxalq turnir keçiriləcək.

Turnir aprel döyüşlərində qəhrəmancasına həlak olmuş polkovnik-leytenant Raquf Orucovun və digər hərbçilərimizin əziz xatirəsinə həsr edilib.

"Raquf Orucov Kuboku" turnirində Azərbaycan ilə yanaşı, Rusiya, İran və Gürcüstanın klub komandaları da iştirak edəcəklər.

Turnir Bakı İdman Sarayında təşkil olunacaq.

## Güləşçilərimiz Qazaxıstanda keçiriləcək beynəlxalq turnirdə iştirak edəcəklər



Aprelin 20-dən 22-dək Qazaxıstanın Çimkənd şəhərində akademik Səfarbayevin xatirəsinə həsr olunmuş yunan-Roma güləşi üzrə XXIV beynəlxalq turnir keçiriləcək.

Turnirdə böyüklərdən ibarət yunan-Roma güləşi üzrə yığma komandamızın 3 üzvü iştirak edəcək.

Məşqçi Turac Hüseynlinin rəhbərliyi altında Eldəniz Əzizli (59 kq), Azad Əliyev və Rövşən Tağıyev (hər ikisi 66 kq) turnirdə mübarizə aparacaqlar.

## Azərbaycan triatlonçusu Rostislav Pevtsov açıq Afrika kuboku yarışlarında qızıl medal qazanıb



Azərbaycan triatlon yığmasının üzvü Rostislav Pevtsov Mərakeşin Rabat şəhərində təşkil olunan açıq Afrika kuboku yarışlarında qızıl medal qazanıb.

Təmsilçimiz 44 idmançının mübarizə apardığı yarışda 57 dəqiqə 28 saniyə nəticə göstərərək Afrika kubokunun qalibi olub. R.Pevtsov yarış zamanı ona ən yaxın olan fransalı Maksim Nüber-Müsbrügeri 1 saniyə qabaqlayıb.

Qadınların mübarizəsində isə komandamızın üzvü Darina Moskalenko 1 saat 6 dəqiqə 53 saniyəlik nəticə ilə altıncı olub. Azərbaycan komandası yarışda baş məşqçi Sergey Yatsenkonun rəhbərliyi ilə təmsil olunub.

Qeyd edək ki, R.Pevtsov İspaniyanın Las-Palmas şəhərində keçirilən Avropa kuboku yarışında da birinci yeri tutub.

## Gənc cüdoçularımız Sankt-Peterburqda 3 medala sahib oldular



Sankt-Peterburqda gənclər arasında cüdo üzrə Avropa kuboku yarışı keçirilib. Mötəbər turnirdə Azərbaycan millisi 3 medal qazanıb.

Ölkəmizi beynəlxalq yarışda təmsil edən Natiq Qurbanlı (55 kq) bütün rəqiblərinə qalib gələrək qızıl medal qazanıb. Gənc cüdoçularımız Kəramət Hüseynov (60 kq) və Musa Şəkərəliyev (100 kq) isə Avropa kubokunun bürünc medallarına sahib olublar.

Qeyd edək ki, beynəlxalq yarışda qitənin 17 ölkəsindən 290 cüdoçu (200 oğlan, 90 qız) mübarizə aparıb.

**AZƏRTAC-ın materialları əsasında**

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Əliyeva Lalə Ərşad qızına 2015-ci ildə verilmiş şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

**Məsul katib**
polkovnik-leytenant İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
Lalə HÜSEYNOVA

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 136
Nüsxə 4650